

# Azad Mirzəcanzadə İnkişaf Proqramı

# Proqramın məqsədi

- Aktual problemlərin yaradıcı həlli yollarını tapmağı bacaran, gələcəyə töhfə verməyə çalışan, innovativ yanaşmaları ilə fərqlənən şəxslərin inkişafına dəstək verilməsi;
- Həmin insanlar üçün dəstəkləyici və maarifləndirici funksiyaya malik olan (İstedadlar Şəbəkəsi) platformanın yaradılması;
- İdeyaların reallaşdırılması üçün yeni imkanların yaradılması.

# Proqrama nələr daxildir?

- İştirakçıların layihə ideyalarına maliyyə dəstəyinin verilməsi;
- Fərdi inkişaf təlimləri;
- Mentorlarla peşəkar inkişaf mövzularında sessiyalar;
- Şəxsi və karyera inkişafı üzrə iştirakçılar arasında şəbəkənin formalaşması.

# Azad Mirzəcanzadə kimdir?

# Azad Mirzəcanzadə

## Azərbaycanlı alim, mütəfəkkir, texniki elmlər doktoru, akademik



**Texniki elmlər doktoru, professor və Azərbaycanın Milli Elmlər Akademiyasının həqiqi üzvü olmuş Azad Mirzəcanzadə 500-ə yaxın elmi məqalə və 50-dən çox ixtiranın müəllifidir.**

Rusiya Təbiət Elmləri Akademiyasının, Başqırdıstan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

İki dəfə Azərbaycan Dövlət Mükafatı, üç dəfə isə akademik İ.M.Qubkin adına mükafatın laureatıdır.

Müxtəlif elmi ad və titullara sahib olan görkəmli alim, Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Özünəməxsus tədris üslubuna malik olan A.Mirzəcanzadədə insanların istedadını aşkara çıxarmaq və gizli potensialını açmaq qabiliyyəti var idi.

Rəhbərliyi altında 250-dən çox fəlsəfə və 100-dən çox elmlər doktoru hazırlanmışdır.

# Biz kimləri axtarırıq?

- 18-35 yaşarası Azərbaycan vətəndaşlarını;
- Novator ideyalara malik olan və dəyişikliklərə cəhd göstərən şəxsləri;
- Şəxsi uğurla yanaşı ümumi rifahı düşünən fəal insanları.

# Proqrama qoşulma şərtləri

**Maraqlanan şəxslər proqrama ideyalarını təqdim etməklə qoşula bilər. İnanırıq ki, insanları onların düşüncələri və parlaq ideyaları təsvir edir.**

- **Layihələr istənilən sahəni əhatə edə və istənilən hədəf qrupuna yönəldilmiş ola bilər.**
- **Layihələr üç ay ərzində ilk nəticələrini göstərməlidir.**
- **Layihənin büdcəsi 5000 manat məbləğini keçməməlidir.**

# Layihənin əhatə edə biləcəyi istiqamətlər

- Ekologiya və yaşıl enerji
- Fərdi inkişaf
- Sosial yönümlü layihələr
- Maarifləndirici layihələr
- Texnoloji və rəqəmsal yeniliklər
- Elmi-tədqiqat layihələri
- Yaradıcı (kreativ) sənayelərə aid layihələr
- Və digərləri.

# Layihə nümunələri:

- Xəzər dənizinin sahilinin təmizlənməsi
- Uşaqlara inklüziv yanaşma
- Gənclər üçün psixoloji dəstək
- Sosial problemlərin texnoloji həlli
- Yaşlılara yardım
- Qızlarda rəqəmsal bacarıqların inkişafı
- Yaradıcılıq sənayesində gənc sahibkarlar

# 1-ci ilin nəticələri

- 12 region
- 185 müraciət
- 15 təlim
- 10 mentor
- 48 ekspert
- 2000+ tələbə və gənc mütəxəssis



## 6 QALİB

Ölçülməyən müsbət enerji dolu günlər, yeni dostluqlar, ideyalar və birgə səylər nəticəsində təsir və parlaq gələcək!

# Qaliblərimizi tanıyaq!

# 1-ci ilin qalibləri



**Ataxan Əhmədov**
**Təvəllüd:** *27.07.2003*
**"SnackPack" layihəsi**
**Bakı – ADA universitetinin tələbəsi**



**Aysu Usubova**
**Təvəllüd:** *09.09.2005*
**"HygeSan4All" layihəsi**
**Bakı – ADA universitetinin tələbəsi**



**Gülşən Səfərova**
**Təvəllüd:** *15.03.2001*
**"Sərhədsiz Gənc" layihəsi**
**Mingəçevir – Bilogiya müəlliməsi**



**Kənan Arifli**
**Təvəllüd:** *29.07.1997*
**"SolarAgroWater" layihəsi**
**Bakı – Yaşıl enerji mühəndisi**



**Türkan Gözəlli**
**Təvəllüd:** *03.10.1995*
**"Rəqəmsal Dünyada Ağılın idarə olunması" layihəsi**
**Qəbələ - İngilis dili müəlliməsi**



**Aysan Omarova**
**Təvəllüd:** *13.06.1997*
**"CH-Group art studio" layihəsi**
**Qazax – quruluşçu rəssam**

# Seçim prosesi

## Seçim prosesi 3 mərhələdən ibarətdir

# I Mərhələ

**I mərhələdə iştirakçılar ərizə formasını doldurmalıdır.
Ərizə forması 3 hissədən ibarətdir:**

- **İştirakçının şəxsi məlumatı. (Ad, soyad, ata adı, təvəllüd, ünvan, oxuduğu və ya işlədiyi yer)**
- **CV. İştirakçı CV-sini sənəd kimi ərizə formasına yükləməlidir.**
- **İştirakçı özü və layihəsi haqqında 3 dədiqəlik video çəkməlidir. Video istənilən YouTube kanalına (şəxsi və ya digər) “siyahıda olmayan“ şəklində yüklənməlidir və link ərizə formasına əlavə edilməlidir.**

# II Mərhələ

**II mərhələdə layihələr daha detallı dəyərləndiriləcək və**
**II mərhələyə keçmiş iştirakçılar əlavə təlim alacaqlar.**

- Şəxsi inkişafetdirici təlimlər təşkil olunacaq (liderlik bacarıqları, emosional zəka, ünsiyyət bacarıqları, vaxtın idarəedilməsi).

## İştirakçılardan gözlənti:

- Layihənin təfərrüatlı PowerPoint təqdimatı.



# III mərhələ

- Namizədlərlə müsahibə. (canlı və ya onlayn şəkildə keçiriləcək)
- Layihələr Azad Mirzəcanzadə İnkişaf Proqramının təşkilatçıları tərəfindən dəyərləndiriləcək.
- Son nəticələr açıqlanacaq.

# Qalibləri

- 5000 manata qədər maliyyə dəstəyi;
- təlimlər;
- mentorlarla sessiyalar;
- ekspertlərlə görüşlər;
- şəbəkələşmə görüşləri gözləyir.

QR kodu scan edin

**Əlavə məlumat üçün:**
**+994 50 457 27 17**

a.mirzajanzade.info@gmail.com

# Təşəkkür edirik!